# "Bakı-2015" birinci Avropa Oyunlarına ən yüksək səviyyədə ev sahibliyi, möhtəşəm qələbələrimiz Azərbaycan idmanının və dövlətinin təntənəsidir

**Möhtəşəm açılışla başlayan, dünya idmansevərlərini 17 gün gərginlikdə saxlayan "Bakı-2015" ilk Avropa Oyunları insanların qəlbini riqqətə gətirən təntənəli bağlanışla da sona çatdı. Yüksək səviyyəli ev sahibliyi, mükəmməl təşkilatçılıq, elit mədəni davranış, qonaqpərvərlik, milli dəyərlər və s. həm idmançıların, həm nümayəndələrin, həm də dünyadakı milyonlarla izləyicilərin yaddaşına silinməz anlar kimi yazıldı və Avropa idman tarixində həmişəyaşar səhifə oldu.**

"Bakı-2015" ilk Avropa Oyunlarının keçirilməsinin Azərbaycana etibar edilməsinin xalqımızda yaratdığı qürur, fəxarətdən doğan davamlı və izdihamlı iştirak, iqtidarın xalqdan aldığı əzəmətli güc, bu zəmində ən yüksək səviyyəli təşkilatçılıq mütəxəssisləri, idmançıları, qonaqları və izləyiciləri heyran etdi. Beləliklə, yaradılan infrastruktur, şərait və münasibət ilk Avropa Oyunlarının yüksək səviyyədə keçməsini təmin etdi. Azərbaycan Prezidenti İlham Əliyev ilk Avropa Oyunlarında qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlarla görüşündəki çıxışında ilk Avropa Oyunlarının keçirilməsində xalqımızın dəstəyinin əhatəsi və əhəmiyyəti barədə demişdir: "Hamımız dərk edirdik ki, bu Oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Məşəlin qarşılanması mərasimlərində iki milyona yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirək. Yadımdadır, qərar qəbul olunandan sonra mən xalqa müraciət və xalqı təbrik etdim. Eyni zamanda. Dedim ki, biz çalışacağıq ki, bu Oyunları ən yüksək səviyyədə keçirək. Şadam ki, bu belə də oldu. Doğrudan da, birinci Avropa Oyunları tarixdə həm də ona görə qalacaq ki, bu Oyunlar ən yüksək dünya səviyyəsində keçirilmişdir".

Təşkilatçılığın hətta standartlardan da yüksək səviyyədə olmasını Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralos da bəyan etmişdilər. Oyunlarda iştirak etmiş idmançılar da öz çıxışlarında yaradılmış şəraitin olduqca münasib və rahat olduğundan, digərlərindən fərqli və yüksək səviyyəli təşkilindən bəhs etmiş və razılıqlarını bildirmişlər. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki qısa müddətdə görülən təşkilatçılığın misilsizliyini nümayiş etdirən bu ifadələrlə ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya müraciət etmişdir: "Birinci xanım Əliyeva, Sizin "Bakı-2015"-in Təşkilat Komitəsinin sədri kimi Avropa Oyunlarında oynadığınız rola qiymət vermək çox çətindir".

Almaniya Olimpiya İdman Konfederasiyasının baş direktoru Maykl Vesper ilk Avropa Oyunları ilə bağlı bu ölkənin "Sport1" telekanalına müsahibəsində deyib: "Biz birinci Avropa Oyunları zamanı çox yaxşı təşkilatçılığın və maraqlı yarışların şahidi olduq". TASS agentliyində birinci Avropa Oyunlarının yekunları ilə bağlı keçirilən mətbuat konfransında Rusiya Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukov RF Prezidenti Vladimir Putinin Bakıda keçirilən Avropa Oyunlarında təşkilatçılığın səviyyəsinin Olimpiya standartlarına tam uyğun olduğunu dediyini bildirib.

Bu Oyunların standartlardan yüksək təşkili iqtidarın xalqla birliyinin, milli-mənəvi dəyərlərimizin saflığının, insanpərvərliyinin, mədəni səviyyəmizin yüksəkliyinin, Azərbaycanın Qərblə Şərqi bir körpü kimi birləşdirə bilməsinin, birgəyaşayış nümunəsi, idman ölkəsi olmasının nümayişi oldu. İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva "Bakı-2015" ilk Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimindəki çıxışında ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsinin yaratdığı qürur hissi, xalqın və dövlətin dəstəyi, bu zəmində görülən möhtəşəm işlər və idmançılarımızın qazandıqları qələbələr barədə demişdir: "Biz ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsindən fərəhlənirik. Qürur hissi duyuruq ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi iki il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi. Son 17 gün ərzində biz Avropa dövlətləri arasında birliyin, həmrəyliyin və dostluğun şahidi olduq. Mən Oyunlara böyük dəstəyə görə Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bütün xalq öz atletləri ilə qürur duyur. Onlar bütövlükdə 56 medal, o cümlədən 21 qızıl medal qazanmış, ümumi medallar cədvəlində isə ikinci yeri tutmuşlar. Azərbaycan atletləri, Sizin uğurunuz gələcək nəsillər üçün bariz nümunədir".

"Bakı-2015" ilk Avropa Oyunlarının ən yüksək səviyyədə keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzuna yeni güclü stimul vermişdir. Yarışlar sona çatsa da, dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələri həm Oyunların gedişindən, həm ölkəmizin milli-mənəvi dəyərlərindən, həm turist məkanlarından, həm sürətli inkişafından, həm də multikulturalizmə sadiqliyindən hələ də bəhs edirlər. Bir sözlə, "Bakı-2015" ilk Avropa Oyunları dünyaya sülh, birgəyaşayış mesaji idi. Almaniyanın "Die Zeit" qəzetidə bu ölkənin Olimpiya Komitəsinin baş direktoru Mixael Vesper "Bakı-2015" ilk Avropa Oyunları barədəki fikirlərində deyir ki, milli və beynəlxalq idman birliklərinin əsas vəzifələri idman tədbirləri çərçivəsində inteqrasiyanın təşviq edilməsi, ayrı-seçkiliyə qarşı mübarizə aparılmsı, ekologiyanın qorunması və iqtisadi davamlılığın gücləndirilməsinə nail olunmasıdır. İdman qlobal hərəkatdır, və onda hər bir ölkənin öz səsi var. İdmanı siyasiləşdirmək, onu siyasətlə eyni tutmaq olmaz. Çünki idman insanları bir yerə toplamaq və ilhamlandırmaq qüvvəsinə malikdir. Bakıda keçirilən ilk Avropa Oyunları bu missiyanı da uğurla yerinə yetirdi. Bakıda azərbaycanlı və erməni, ukraynalı və rus, kosovolu və serb idmançılarının Atletlər Kəndində bir yerdə qalmaları, məşq etmələri buna misal kimi göstərilə bilər. Bunu həm də münaqişələrlə dolu olan dünyamıza mesaj kimi dəyərləndirmək olar.

Ukrayna Milli Olimpiya Komitəsinin prezidenti Sergey Bubko "Bakı-2015" ilk Avropa Oyunlarının təşkilinin səviyyəsi və ukraynalılar üçün əhəmiyyəti barədə deyib: "Biz belə bir möhtəşəm Oyunlarda 50 ölkə arasında 8-ci yeri tutduq. Bu, yüksək göstəricidir. Oyunlar çox möhtəşəm keçdi. Azərbaycan birinci Avropa Oyunlarını gözlənildiyindən də uğurla təşkil etdi. Çox xoşdur ki, Ukrayna Avropa idmanının möhtəşəm tarixi hadisəsinin bir parçası oldu, atletlərimiz idman tarixinin yeni səhifəsinin yazılmasında iştirak etdilər. Bu Oyunlar və yarışların nəticələri bizim üçün Yay Olimpiya Oyunlarına bərabərdir".

Hər bir yüksək səviyyəli beynəlxalq tədbiri keçirmək üçün ev sahibliyi edən ölkənin buna müvafiq bazası olmalıdır. Azərbaycanda belə bir zəminin olması "Bakı-2015" ilk Avropa Oyunlarının yüksək səviyyəli təşkili ilə öz təsdiqini tapdı. Bu reallıq düşünülmüş siyasət nəticəsində ölkəmizdə baş verən davamlı innovativ inkişaf sayəsində yaranmışdır. Dövlət başçısı ölkəmizin dinamik tərəqqi yolunda olacağı, daha yüksək mərhələlərə çatacağı barədə demişdir: "Təsadüfi deyil ki, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında bizim idmançılarımız ən yüksək kürsüyə qalxırlar. Bu dəfə isə bu Oyunlar Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir. Biz gələcəkdə də uğurla inkişaf edəcəyik. Məndə bu məsələ ilə bağlı heç bir şübhəm yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim uğurlarımız və qələbələrimiz olacaqdır. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**